# Tarix dərslərində qruplarla işin təşkilinin mahiyyəti

**Nigar Namiq qızı Ağayarlı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nigar.agayarli@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova,
p.ü.f.d., dos. D.M. Musayev

**Açar söz:** ümumtəhsil məktəbləri, qruplarla iş, tədris, məktəb, təhsil, şagird, müəllim, interaktiv təlim, müasir dərs, metod
**Ключевые слова:** общеобразовательные школы, групповая работа, обучение, школа, образование, ученик, учитель, интерактивное обучение, современный урок, метод
**Key words:** general educational schools,group work, teaching, school, education, student, teacher, interactive learning, modern lesson, method

Müasir təhsil sistemində sinifdə kollektiv fəaliyyətinin həm frontal, həm də qrup şəklində təşkilinin müxtəlif formalarından geniş istifadə olunur. Fəal təlimin iş formalarına aiddir:
— fərdi iş;
— qruplarla iş
— cütlük şəklində iş
— bütün sinif şəklində iş

Fəal təlimin ən geniş istifadə olunan üsulu qrup işi formasıdır. Bu iş forması şagirdlərə əməkdaşlıq etməyi, təfəkkür inkişaf etdirməyə, onlar fikirlərini sərbəst çatdırmağı, yaradıcı fəaliyyət göstərməyi öyrədir. Qrup texnologiyasında qruplararası işi də qeyd etmək lazımdır (hər qrupun öz vəzifəsi olur). Qruplarla iş zamanı uşaqlar kiçik qruplarda birləşir, ümumi mövzu ətrafında müzakirələr aparırlar. Müəllim tərəfindən düzgün rəhbərlik və idarəetmə ilə bu tədris formaları ümumi məqsədin dərk edilməsini, vəzifələrin məqsədəuyğun bölüşdürülməsini həyata keçirməyə imkan verir. İstər fəal, istərsə də interaktiv təlim metodlarından istifadə müəllimin pedaqoji, metodiki ustalığından çox asılıdır. Müəllim işin gedişatına nəzarət edir, qrup üzvlərinin işinə müdaxilə edə bilər, suallara cavab verir, mübahisələri, iş prosesini tənzimləyir və lazım olarsa şagirdlərə kömək edir. Bu texnologiya ilə həm güclü, həm də zəif şagirdləri öyrətmək mümkündür. Müəllim zəif uşaqlara daha çox diqqət ayırmalı, kömək etməlidir.

Kollektiv fəaliyyət kimi qrup texnologiyaları aşağıdakıları əhatə edir:
— ümumi məqsəd
— ünsiyyət
— əməkdaşlıq
— qarşılıqlı anlaşma
— birgə fəaliyyət (1, s. 60-63)

Qrupda işləmək şagirdlərə öyrənmə fəaliyyətini dərk etməyə kömək edir. İlk olaraq, birlikdə işləyərək, şagirdlər rolları bölüşdürür, fəaliyyətləri planlaşdırır. Qruplar eyni və ya fərqli tapşırıqları yerinə yetirə bilər. Bundan asılı olaraq vahid və diferensiallaşdırılmış qrup işi fərqləndirilir.

Qruplarla iş bütün əsas didaktik problemləri həll etmək üçün istifadə edilə bilər: tapşırıqların yerinə yetirilməsi, təkrarı, yeni materialın öyrənilməsi və s. Müəllim yaxşı ünsiyyət mədə-

niyyətinə malik olmalıdır, tez-tez şagirdlər arasında münasibət qurmaq üçün səy göstərməlidir, onları həvəsləndirməlidir (2, s. 77-78).

Təlim prosesində qrup işinin təşkili olduqca mürəkkəb prosesdir. Buna səbəb şagirdlərin müxtəlif psixoloji xüsusiyyətlərə malik olmasıdır. Qrup işinin təşkili zamanı şagirdlər müxtəlif psixoloji situasiyalar yaşayırlar. Təlim-tərbiyə işinin təşkili zamanı hər bir şagirdin psixolojı və yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Qrup işinin təşkili tərbiyələndirici funksiyanı yerinə yetirir, şagird şəxsiyyətinin inkişafında böyük rol oynayır. Qrup işi ictimai həmrəylik, yoldaşlıq, humanizm və s. kimi yüksək əxlaqi hissləri formalaşmalaşdırır. Qrup işinin təşkili zamanı qavrayış, təxəyyül, təfəkkür və nitq qabiliyyətləri inkişaf edir (3, s. 41).

Qeyd etmək lazımdır ki, qruplar təhsilalanların uyğunluq səviyyəsindən, təlim dərəcəsindən, fənn üzrə dərsdənkənar məlumatlılıq səviyyəsindən asılı olaraq formalaşdırılmalıdır ki, bu da bir-birini qarşılıqlı surətdə tamamlamağa və kompensasiya etməyə imkan verəcəkdir. Müəllim unutmamalıdır ki, qrupda bir-birinə mənfi münasibət bəsləyən şagirdləri birləşdirmək yolverilməzdir.

Yuxarıdakılara əsaslanaraq qeyd etmək lazımdır ki, müəllim hər bir qrup üçün tapşırıqları, iş planını və mərhələlərini dəqiq şəkildə formalaşdırmalıdır. Vaxt keçdikcə uşaqlar bunu özləri öyrənə biləcəklər. Qrupla iş forması şagirdlər tərəfindən artıq formalaşmış bacarıq və biliklərə əsaslanmağı nəzərdə tutur. Qrup dərslərindən nəticə əldə etmək üçün müəllim sinfi çox yaxşı bilməlidir (metodiki məsləhətlər vermək, onların biliklərinin keyfiyyətini yoxlamaq). Hazırlığa sərf olunan bəzi əlavə vaxt böyük pedaqoji qazancla kompensasiya olunur (4, s. 23).

Müasir məktəb şagirdlərin xüsusiyyətlərini, imkanlarını və maraqlarını nəzərə almaqla onların təhsil ehtiyaclarını təmin etməli, özünü doğrultmaq üçün şərait yaratmalı, yaradıcı intellektual əməyə hazırlamalıdır. Bilik və bacarıqların mənimsənilməsini tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafı ilə necə birləşdirmək olar? Öyrənmə fəaliyyətini necə daha maraqlı və rəngarəng etmək olar? Bu sualların cavabını sinifdə qrup işini təşkil etməklə tapmaq mümkündür. Qrup işinin bir sıra üstünlükləri var. Tədqiqatçı metodistlər müəyyən etmişlər ki, dərslərdə qrup işindən istifadə tədris materialının dərketməsini, şagirdlərin idrak fəallığı və müstəqilliyini artırır. Dialoq aparmaq, öz fikrini bildirmək, özünütənqid hissi formalaşır (5, s. 25).

Qrup işinin çatışmamazlığı ondan ibarətdir ki, bu formanı hazırlıqsız sinifə tətbiq etmək mümkün deyil. Bu iş forması hər sinifdə tədbiq edilə bilməz, bu da uşaqların psixi xüsusiyyətləri ilə bağlıdır. Yuxarıda qeyd edildiyi kimi, qrup işini tədbiq etmək üçün müəllim öz sinfini hərtərəfli öyrənməli və araşdırmalıdır. Qeyd etmək lazımdır ki, aşağı sinif şagirdləri ilə qrup işinin təşkilinin öz xüsusiyyətləri vardır:

— uşaqları qruplarda işləməyə məcbur etmək olmaz;

— birgə iş 1 və 2-ci siniflərdə 15-20 dəqiqədən, 3 və 4-cü siniflərdə isə 20-30 dəqiqədən çox olmamalıdır;

— bir-birinə mənfi münasibət göstərən uşaqları birləşdirmək mümkün deyil;

— şagirdlər arasında münasibətin yaranması üçün müəllimin xüsusi səyi tələb olunur (5, s. 13).

Nəticədə qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərin qruplarla işin psixoloji, didaktik və fəlsəfi cəhətdən düzgün və düşünülmüş şəkildə təşkili şagirdlərin tarix fənninin yaradıcı səviyyədə mənimsəməsinə kömək edə bilər.

**Məqalənin aktuallığı.** Tarix dərslərində qruplarla işin təşkilinin mahiyyəti əsas xüsusiyyətləri və istiqamətlərinin təhlili baxımından məqaləni aktual saya bilərik.

**Məqalənin elmi yeniliyi.** “Qruplarla iş” metodunun həm təlim, həm tərbiyəvi cəhətləri

tədqiq edilərək üzə çıxarılmışdır. Metodun səciyyəvi cəhətləri müəyyənləşdirilərək onun mahiyyətinə aydınlıq gətirilmişdir. Ümumtəhsil məktəblərində tarix dərslərində “qruplarla iş” metodunun səmərəli yolları diqqətə çatdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən təkliflər və nəticələr tədris prosesində şagirdlər üçün inkişaf mühitinin tənzimlənməsinə şərait yaratmaqla bərabər, ümumtəhsil məktəblərinin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində irəli sürülən metodik məsləhətlərdən də istifadə edə biləcəklər.

## Ədəbiyyat

1. Н.Ю. Никулина. Методика преподавания истории в средней школе. Калининград, 2000, 96 s.

2. Герасимова, О.В. Групповая работа на уроке истории как средство развития коммуникативных универсальных учебных действий школьников // Начальная школа плюс до и после, 2011, № 5. https://nsportal.ru/nachalnaya-shkola/dlya-kompleksov-detskii-sad-nachalnaya-shkola/2021/10/13/gruppovaya-rabota-kak

3. Feyziyev Ə., İbrahimov F., Bədiyev S. Didaktika. Bakı: Mütərcim, 2011, 655 s.

4. Танцоров, С. Групповая работа в развивающем образовании: исследовательская разработка для учителя / С.Танцоров. – М.: ПЦ “"Эксперимент"”, 1997, 39 s.

5. Витовская И. М. Обучение младших школьников в совместной деятельности: Учебно-методическое пособие. Псков, 2000, 100 s.

**Н.Н. Агаярлы**

## Суть организации работы с группами на уроках истории

## Резюме

В статье дано обоснование актуальности метода «работы с группами» при изучении истории в средних школах. Рассмотрены его дидактические функции. Дается разъяснение значимости содержания метода «работы с группами».

**N.N. Aghayarli**

## The essence of organizing work with groups in history lessons

## Summary

The relevance of using the method “group work” in the study of history in secondary schools has been based in the article. Its didactic functions have been brought clarity. The essence and content of the method of "group work" have been interpreted in the article.

**Redaksiyaya daxil olub:** 19.04.2022